


180 summer 2014

# "HALI" jurnalı "Azər-İlmə" ilə əlaqələrini genişləndirir




"Azər-İlmə" Böyük Britaniyada nəşr olunan məşhur "HALI" jurnalında Azərbaycan xalçalarının bütün qruplarına aid xalçaların mənşəyi, tarixi, onların toxunduğu yerin coğrafiyası, iqlimi, əhalisi, adət-ənənələri, dünyagörüşü haqqında materiallarla mütəmadi çıxışlar edir. Bu, qədim xalçalarımızın düzgün təbliği naminə atılmış mühüm addımdır. Həmçinin, şirkət bu jurnalın səhifələrində Azərbaycan xalçası həvəskarlarının, kolleksionerlərin, alimlərin suallarını cavablandırmaq üçün ödənişsiz rubrika yaratmışdır. Qısa zaman ərzində geniş oxucu kütləsinin marağını qazanmış rubrika xalçaçılığa dair rəngarəng sualları cavablandırmaqla yanaşı, həm də intensiv əlaqələr zəminində dünyanın müxtəlif şəxsi kolleksiyalarında saxlanılan qədim Azərbaycan xalça örnəklərini üzə çıxarır, onların tarixini, qrupunu, bədii və texniki göstəricilərini dəqiqləşdirir.

"Azər-İlmə" bu istiqamətdə fəaliyyətini beynəlxalq standartlara müvafiq şəkildə qura bilmişdir. Burada bütün xalçalar aid olduğu bölgənin tarixi kökləri, etnoqrafik özəllikləri, adət-ənənələri, folkloru ilə vəhdətdə araşdırmalara cəlb edilir. Və yalnız düzgün təhlillər, müqayisələr zəminində əldə edilmiş nəticələr əsasında hər bir xalçaya dair məlumatlar konkretləşdirilir.